## Nikahdan sonra soyadını dəyişmiş vətəndaşlara soyadın dəyişməsi haqqında şəhadətnamənin verilmə qaydası

Nikahdan sonra soyadını dəyişmiş vətəndaşların müraciətinə əsasən, Səfirlik, həmin şəxslərə soyadın dəyişməsi haqqında şəhadətnamə verir. Bu vətəndaşlar yeni pasport alarkən, onların soyadları şəhadətnaməyə əsasən nikahdan sonrakı soyadla yazılır.

Soyadın dəyişməsi haqqında şəhadətnamə almaq üçün aşağıdakı sənədlər Səfirliyin konsulluq şöbəsinə təqdim edilməlidir *(Ünvan: Embassy of Azerbaijan, Consular Section, 2741 34th Street NW, Washington DC, 20008):*

1. **Sərbəst formada yazılmış ərizə**
   (*Səfirliyin adına ünvanlandırılmış ərizədə müraciət edən şəxsin soyadı, adı, atasının adı, ABŞ-dakı ünvan və telefon nömrəsi, ABŞ-a gəlmə tarixi, nikah bağladığı tarix, həyat yoldaşının adı və soyadı, müraciətin səbəbi və yeni soyadının necə yazılması xahiş edildiyi göstərilir.*)

2. **Doğum şəhadətnaməsinin surəti – 2 nüsxə**

3. **Nikah sənədinin surəti - 2 nüsxə**

4. **ABŞ-da yeni soyadla verilmiş sənədlərin (***Green Card, Sosial Security, sürücülük vəsiqəsi, şəxsiyyət vəsiqəsi***) surətləri – 2 nüsxə**

5. **Ərzəçinin pasportunun əsli və surəti – 2 nüsxə**

6. **Ərizəçinin həyat yoldaşının pasportunun surəti – 2 nüsxə**

Müraciətdən asılı olaraq yuxarıda sadalanan sənədlərdən əlavə digər sənədlər də tələb edilə bilər.